Müstəqil ictimai-siyasi, publisistik qəzet № 39 (1119) 28 sentyabr 2022-cı il Kredo Qəzet 1999-cu ilin oktyabrından çıxır

# BİLAL ALARLI - 65

*Nöqtəçilər forma baxımından əsasən hecaya üstünlük verirlər. Elə Bilal Alarlının özü də bu vəzndə yazır. Doğrudur, vəznin qaydalarına heç də bütün hallarda riayət olunmur, bəlkə də buna fikir sərbəstliyi, poetik düşüncənin vüsəti mane olur... Bir sıra maraqlı təravətli deyimlər Bilalın intensiv poetika axtarışlarında olduğunu göstərir.* (Nəzif Ələkbərli)

*Bilal Alarlının ədəbi və folklor tədqiqatları paytaxtdan kənarda unudulmaqda olan sözümüzün qayğısını çəkmək sarıdan qiymətlidi. Bilal bölgənin müqəddəs adamları haqqında da toplu nəşr elətdirib, şəhidlərin xatirəsinə də yazılar yazıb. Bütün bu işləri əsl ziyalı təəssübkeşliyi ilə görüb. Bilal Alarlının daha bir təqdirəlayiq işi var: Alar kəndində "Nöqtələr" ədəbi qrupunu təşkil eləyib. Təkcə özümdə yox, başqalarının içində də işığı görmək, saxlamaq indiki zamanda hörmətəlayiq işdi.* (Nəriman SSBDÜLRSSHMANLI)



## Öz işində olan dünyadan görkəmli Bilal Alarlıya məktub

Əzizim Bilal Alarlı, yəqin ki, bu başlığa ilk nəzər yetirən hər kəs nəyinsə çatmadığını düşünəcək. Bəlkə bir az sərt mövqedə olsa, deyəcək ki, nə savadsız başlıqdır.

Hər kəsin müstəqil düşünmək haqqı var. Və bunu kimsədən almaq niyyətimiz yoxdur. Amma hər halda oxucu haqqını nəzərə alıb bir az izahat da vermək istədim. Yaxşı bilirəm, Bilal Alarlı ardıcıl olaraq öz işindən, peşəsindən bezməyən, ən başlıcası, fəaliyyətindən mənəvi zövq alan pedaqoqdur. Və artıq onun əqidəli, prinsipial pedaqoji fəaliyyəti müasir pedaqoji fikir tariximiz üçün kifayət qədər məlumdur. Yəni şəxsin öz fəaliyyətində kifayət qədər tanınması onun görkəmli olduğuna isnad verən həqiqətdir.

Əziz dostum, sən illər boyu yorulmadan, usanmadan, cəmiyyətin mənəvi durumu ilə bağlı və ən başlıcası, vətənin taleyüklü məsələləri ilə səsləşən publisist yazıların müəllifisən. Bəlkə də sosial şəbəkə də nəzərə alınsa, publisist yazılarının heç sayını da bilmirsən. Publisistin kimliyi onun həqiqət iddialısı olmağında və ən başlıcası, cəsarətində görünür. Mən birmənalı olaraq səni publisistikamızın görkəmli nümayəndəsi kimi görürəm.

İndi bir qədər də üçüncü şəxs timsalında danışım. Mən Bilal Alarlı ilə onun ziyalı böyüklüyünü görməyimdən, tanımağımdan və qəbul etməyimdən uzun illər sonra onunla bircə günlük yoldaşlıq etmişəm. Azərbaycanın görkəmli filosof alimi Sabir Bəşirovun xatirə günündə. Həmin bir günlük yoldaşlıq mənə bəs eləyib ki, sənin ziyalı təbiətini görüm. Elmi yaradıcılığını da, ardıcıl olaraq izləmişəm. Tədqiqatlarının məzmunu ilə də tanışam. Etnosun təbii-tarixi inkişaf rolunu folklor materialları əsasında şərh etməyini xüsusilə orijinal bir istiqamət kimi qəbul etmişəm.

Düşünmüşəm ki, nə yaxşı Bilal Alarlı kimi əyalətdə yaşayan ziyalılar var. Onlar kimsədən pay ummadan, hansısa mətləbi sifariş əsasında yazmaq niyyətində olmadan cəmiyyətdən yığdığı enerjini cəmiyyətə qaytarmaq istəyində olanlardır. Sən işıq, enerji mənbəyi olan ictimai xadimsən, özü də görkəmli ictimai xadim. Təkcə elə alarlar və "alar" sözünün tarixi mənşəyi ilə bağlı türk arealında Aların yerini göstərən (doğudan batıyacan) tədqiqatın üçün tam inamımla deyirəm ki, sən dövlət səviyyəsində təqdirlərə layiq görülməlisən. Bu da sənin ziyalılıqda və alimlikdə görkəmlilik obrazını təsdiq edən faktlardandır. Əlbəttə, sənin elmi yaradıcılığın, ədəbi fikrimizin inkişafı üçün tədqiqatların ayrıca bir mövzudur. Bunlar öz yerində...

Əzizim Bilal Alarlı, 35 kitab müəllifisən. Haqqında biblioqrafiyalar, tədqiqat əsərləri yazılıb. (Bəybala Ələsgərov, "Əyalətin ədəbiyyat mogikanı" Bilal Alarlı Hüseynovun ədəbi və elmi fəaliyyəti biblioqrafik göstəricidə) Şübhəsiz, bütün bunları mən hələ bitməmiş, yekunlaşmamış yaradıcılıq bəhrəsi kimi görürəm. Çünki sənin hələ özün də qızğın yaradıcılıq yolundasan, üstəlik, səni tədqiq edənlər də kimliyini, xüsusilə ədəbiyyatımız üçün kimliyini yeni-yeni görməkdədirlər.

Poeziya ilahi bir qüdrətdir. Kimin ruhunda varsa, bunu özü üçün, varlığının gücünü göstərməsi üçün ilahi bir təminat hesab edir. Bir sözlə, şair olanı qədərincə görməmək əslində onun ətrafının günahıdır.

Əziz dostum - bəli, dostum deyirəm, ona görə dostum deyirəm ki, əqidə yolu, təbiəti, varlığı cəmiyyətə doğma olanın hər birini özüm üçün dost bilirəm - səni görkəmli şair kimi görməsəm, bu sənin poetik məkandakı yerinə xələl gətirməz. Mənim ədəbi meyar olmaq iddiama xələl gətirər. Axı sən həm də Azərbaycan xalqının görkəmli bir şairisən.

*(Davamı 8-ci səhifədə)*

Neçə-neçə dəyərli poetik kitabların müəllifi olaraq tanınırsan. Azərbaycanın ədəbi fikir məkanında, eləcə də, qonşu ölkələrin ədəbiyyatsevərlərinin diqqət mərkəzində olmusan. əsərlərin nəşr olunmaq imkanlarına görə sərhədlərimizi çoxdan aşıb. Poetik kitablarının adlarını, ünvanlarını sadalamaq imkanım yoxdur. Amma sənin poetik düşüncə gücünü göstərmək üçün bəzi ədəbi faktları diqqətə çəkmək istərdim. "Təsəlli" adlı şeirin var: "Səni belə yandırdım, Qanmadığın şeyləri sənə qandırdım. İndi tüstülən öz içində, Qovrulub külə dön köz içində. Bil, atmaq necə olur, atılmaq necə olur; Satmaq necə olur, satılmaq necə olur. Çəkdirdiklərini çək özün də bir-bir, Sənə dözüm arzulayıram, bir də səbir". Bu sənin "Son dua" kitabındandır. Yeri gəlmişkən, bu kitabda demək olar ki, 5-6 ilin sənin yaradıcılığın üçün göstərici olacaq poetik mənzərə öz əksini tapıb. Onu da deyim ki, sənin tədqiqat istiqamətin daha çox folklorla bağlıdır. Görünür, poetik yaradıclığında da yeniliklər, düşüncəni orijinal, xalqdan gələn ruh əsasında özünüifadə imkanı məhz folklordan qaynaqlanır. Özü də yenilənmələr, yeniliklər də diqqəti çəkir. Çabalar və hədələr, çağırış bədahətləri, düşüncələr və ustadnamələr, gileyləmələr - bütün bunlar əslində sənin orijinal janr yaradıcılığın haqqında kifayət qədər məlumat verən faktlardır.

Əziz dostum, kimsə elə düşünməsin ki, sən ənənəvi poeziyadan uzaqlaşmısan. Yazıların modern və postmodern düşüncə imkanlarını da göstərir. Ancaq ənənə üzərində yazdığın şeirlər də kifayət qədər sənin poetik imkanlarına güzgü tuta bilir:

Dağ başında duman olar,
Təki dağ ol, duman keçər.
Gün tutular, bulud dolar.
Pis gün ötər, zaman keçər.

Gözlədiyin o xoş an gələr,
Bağ-bağçaya da can gələr.
Sən yaxşı ol, yaman gələr,
Yaman olar, yaman keçər.

Qüssədən yan öt, dayanma,
Öz yolunla get, dayanma.
Dərdə uyma, qəmə yanma,
Ah çəkərsən, aman keçər.

Nə gözəl duyğulanmalardır? Qaraca oğlan, Dadal oğlu, Yunus İmrə motividir. Bir sözlə, poetik düşüncənin varisliyini qorumaq yoludur. Bu şeiri təsadüfi vermədim. Demək istədim ki, Bilal Alarlı həm də bu cür şairdir.

Jül Vernin məşhur qəhrəmanı kimi həmişə, hər yerə gecikirəm. Bu dəfə Bilal Alarlının 65 yaşını gözləmədim, bir az məramı qabağa çəkdim. Qoy ədəbi mühit də bir az tələssin. Dostum Qurban Bayramov deyir ki, elə bir namuslu əmək yoxdur ki, axır ki, öz dəyərini almasın. Özü də bu məramında Balzaka əsaslanır. Mən də razıyam, amma bəzən axır ki, öz qiymətini almaq, az qala yüz ildən sonraya da qalır.

Sonuncu qeydlərimi belə bir məramla sona çatdırardım;

Bilal Alarlı həm də görkəmli şairdir. Amma bütün bunların hamısının fövqündə onun görkəmli ziyalı olmağı dayanır.

Bilal Alarlıya bu məktubum Azərbaycan xalqının mənəvi mühiti uğrunda can qoyan ziyalıların hamısına ünvandır.

Sağ ol, Bilal Alarlı, əziz dostum. Bəlkə də yenə gecikmişəm. Bəlkə elə neçə il əvvəl yazmalıydım bu qeydləri. Neyləmək olar?! Bəlkə tale-qismət elədi, söz verdiyim digər dostlarımla birlikdə səni də elə Xudafərinə apardım, bəlkə onda onda günahımdan keçərsən.

Sonsuz sayğılarla.

***Ə.R.* Xələfli**

***28.09.2022***